# AZƏRBAYCAN RESPUBLİKASI DAXİLİ İŞLƏR NAZİRLİYİ

**P O L İ S   A K A D E M İ Y A S I**

**KAFEDRA:** ***«İctimai elmlər»***

**FƏNN:** ***«Fəlsəfə»***

**FAKÜLTƏ:** Əyani

# *MÜHAZİRƏ*

**MÖVZU:№7 «Şüur, onun mənşəyi və mahiyyəti»**

*Vaxt-2 saat*

***Tərtib etdi***: «İctimai elmlər»
kafedrasının baş
müəllimi, polis baş leytenantı ***Rəşad Qasımov***

Mühazirə kafedranın iclasında müzakirə edilib və bəyənilib.

Protokol № ____ “________” ______________ 2016-cı il

**BAKI 2 0 1 6**

# MÖVZU №7. «Şüur, onun mənşəyi və mahiyyəti»

## PLAN

***GİRİŞ***

1. **Fəlsəfədə şüur problemi**
2. **İnikasın forma və səviyyələri**
3. **Mənlik şüuru**

***NƏTİCƏ:***

## ƏDƏBİYYAT:


1. Fərhadoğlu M. Fəlsəfənin əsasları (dərs vəsaiti). Bakı, 2006
2. Hacıyev Z. Fəlsəfə (Ali məktəblər üçün dərslik). Bakı, 2012
3. İmanov H. Fəlsəfənin əsasları. Bakı, 2010
4. Mehdiyev R. Fəlsəfə (Ali məktəblər üçün dərs vəsaiti). Bakı, 2010
5. Nəzərova A. Fəlsəfə terminlərinin izahlı lüğəti. Bakı, 2014
6. Paşayev V. Fəlsəfə. Bakı, 1999.
7. Rüstəmov Y. Fəlsəfənin əsasları (dərs vəsaiti). Bakı, 2007
8. Şükürov A. Fəlsəfə (Ali məktəblər üçün dərslik). Yenidən işlənmiş və təkmilləşdirilmiş ikinci nəşri . Bakı, 2008
9. Tağıyev Ə. Fəlsəfə. Bakı, 2012
10. Алексеев П.В. Философия (Учебник). Москва, 1998
11. Васильев В. В. Трудная проблема сознания. Москва, 2009
12. Деннет, Д. Виды психики: на пути к пониманию сознания. — Перевод с англ. А. Веретенникова. Под общ. ред. Л. Б. Макеевой. Москва, 2004
13. Горелов А.А. Основы философии. (Учебник для вузов). Москва, 2010
14. Философия: Учебник. / Под ред. А.Ф. Зотова, В.В. Миронова, А.В. Разина.— 2-е изд., перераб. и доп. Москва, 2004.
15. Канке В.А. Основы философии. (Учебник для вузов) Москва, 2008
16. Патнем, Х. Разум, истина и история. Москва, 2002.
17. Пенроуз, Р. Тени разума. В поисках науки о сознании. Москва, 2005.
18. Прист, С. Теории сознания. Москва, 2000.
19. Райл Г. Понятие сознания. Москва, 1999
20. Серл Д. Открывая сознание заново. М Москва, 2002.

## *GİRİŞ*

Şüur fenomeni ən müəmmalı, çoxlu mübahisə və diskussiyalara səbəb olan problemlərdəndir. Bu isə şüurun öz təbiəti ilə əlaqədardır. Şüur insanın varlığı ilə əlaqədardır. Şüurun ən mühüm xassəsi onun ideal olmasıdır. Şüura materialist baxışa görə o, insan beyninin fəaliyyəti prosesidir, beynin funksiyası olmaq etibarı ilə ondan kənarda mövcud deyildir. Beyin isə fikir orqanı, materiyasıdır, özünəməxsus şüur aparatıdır. Şüur beynin fəaliyyətinin məhsuludur. Və o, beyində öz – özünə yaranmır, beyinə hiss üzvləri vasitəsilə daxil olan xarici təsirlərin sayəsində formalaşır. Şüurun təşəkkülü mexanizminin aparıcı elementi maddi mühitlə insan beyni arasındakı vasitəçilər olan hiss üzvləridir. Onlar isə daxili və xarici olmaqla iki yerə bölünürlər. Xarici hiss üzvləri (görmə, eşitmə, dad bilmə, toxunma) beyinlə xarici aləm arasındakı ilkin informasiya daşıyıcıları, şüurun ilkin əsasıdır. Daxili hisslər isə sırf idrak prosesinə daxil olan, onun emosional sahəsi ilə, məntiq əməliyyatı ilə bağlı olan mənəvi – hissi ifadələrdir.

Müasir fəlsəfi tədqiqatlarda şüurun dünyaya münasibətinin əsas tipləri olmaq etibarı ilə birincisi, şüurun mövcud olması formalarından olan idrakı, ikincisi, şüurlu insanın məqsədəuyğun fəaliyyətindən ibarət olan praktikanı, üçüncüsü, cəmiyyətdə mövcud olan əxlzqi, estetik normalar sistemi ilə müəyyən edilən dünyaya, cəmiyyətə və insana sərvət münasibətlərini bir – birindən fərqləndirirlər. Şüurun necə mövcud olması üsulu və onun nəyinsə necə mövcud olması – bilik deməkdir.

Şüur idraksiz, obyektiv aləmə idraki münasibət olmadan qeyri – mümkündür. Şüurun sistemli elementləri duyğu, qavrayış və təsəvvürlərdən ibarətdir. Onlar strükturca təşkilə malik olan öz qanunauyğunluqları ilə keyfiyyətcə fərqlənən ideal bütövlükdür.

Şüurun varlığının digər mühüm tərəfini mənlik şüuru adlandırılan özünü dərketmə təşkil edir. Özünü dərk etmə insanı öz hərəkətlərini, hisslərini, fikir və davranış motivlərini, cəmiyyətdə tutduğu yeri və vəzifələrini dərk etməyə deyilir.

Özünü dərk etmənin strükturu və formaları, pillələri və səviyyələri mövcuddur. İlkin pillədə o, öz – özlüyünü hiss etməkdən, ikinci pillədə isə özünün müəyyən insan birliyinə aid olduğunu, üşüncü pillədə şəxsi «mən» şüurunu anlamaq, ona nail olmaq və formalaşmadan ibarətdir. Fəlsəfə tarixində bilik və həqiqətə özünü dərk etmə şüuru ilə yaranan ilk filosof Sokrat olmuşdur. Onun fikirləri «mən bir şeyi bilirəm ki, heç nəyi bilmirəm, başqaları heç bunu da bilmirlər» və özünü dərk et və s. Dekert «düşünürəm, deməli mövcudam», Kant isə «öz hərəkətlərinə fikir ver ki, o, ümumi qanunlara uyğun gəlsin».

## Sual 1. Fəlsəfədə şüur problemi

Fəlsəfə tarixinin öyrənilməsi bir daha sübut edir ki, şüur problemi ən çətin və ən müəmmalıdır. İnsanın gözləri qarşısında dünya durur, çoxsaylı predmetlər, onların xassələri, hadisələr və proseslər bu qəbildəndir. Adamlar dünyanın sirlərini öyrənmək, gözəlliklə, bəzən də eybəcərliklərlə rastlaşdıqda öz həyəcanlarının səbəblərini izah etmək, öz fikirlərinin mənbəyini axtarmaq və s. ilə məşğul olmağa çalışırlar. Lakin bütün bunlar – əhval–ruhiyyə, hiss və fikirlər şüur adlanan nə varsa onun vasitəsilə bizə gəlib çatır. Şüur dünyanın mənimsənilməsində insanın yol yoldaşıdır. Şüur aləminə daxil olmaqdan ötrü sadəcə olaraq fikirləşmək, həyəcan keçirmək, hiss etmək, qavramaq kifayət deyildir; bunun üçün bir növ əlavə aktlar da zəruridir ki, onların köməyilə Mən sadəcə olaraq düşünürəm, "Mən fikirləşməliyəm", "Mən həyəcanlanıram", "Mən sadəcə nəyi isə bilirəm yox" və s. və i.a.

**Şüur – yalnız insana xas olan xüsusi vəziyyətdir ki, onunla dünya və eyni zamanda insanın özü başa düşüləndir.** Şüur – ani olaraq insanın gördüyünü, eşitdiyini, hiss etdiyini, düşündüyünü və yaşadığını əlaqələndirir. Bir çox filosoflar şüuru dünyanın möcüzələr möcüzəsi kimi, insana bəlli edilən ən böyük və ilahi hədiyyə kimi müəyyənləşdirirlər. Yalnız şüur vasitəsilə öz–özünə "mən" kimi təqdim olunur. "Mən" isə mənəvi varlığın ən yüksək zirvəsinə yüksələndir. Burada iztirab və məhəbbət, dostluq, sevinc və s. hissləri mühüm yer tutur. Şüur– dünyanın təkcə möcüzəsi deyil, həmçinin əzab və işgəncəsidir.

Fəlsəfi fikirlər tarixində şüur problemi özünün həllinin iki səviyyəsinə malikdir. Birincisi, hansı şeylərin şüura verilməsi və orada mövcudluğu üsullarının təsviri ilə əlaqədardır. Fəlsəfi dildə bu şüur fenomenin təsviridir. İkincisi, bu məqsəd daşıyır ki, şüurun özünün mümkünlüyü, daha dəqiq desək, fenomeninin özünün izahıdır. Antik və yeni dövr fəlsəfəsində göstərilən səviyyələr fərqləndirilmirdi, ona görə də belə hesab edilirdi ki, şeylərin şüurda mövcudluğunun üsulları təsvir olunubsa, deməli şüurun təbiəti məsələsi həll olunmuşdur. XX əsrdə filosoflar şüurun müstəqilliyi imkanlarını xüsusi qeyd etməyə başladılar. Şüur ayrıca predmet və yaxud şey kimi mövcud

olmadığına görə onu dərk etmək, təsvir etmək, müəyyənləşdirmək olduqca çətindir. Bizə hər şey şüurun sayəsində verilmişdir. O, bizim bütün qavrayışlarımızı, hisslərimizi, fikirlərimizi bir an içində əlaqələndirir, özü də bütün bunları bizdən asılı olmayaraq, nəzarətimizdən kənarda, razılığımız olmadan edir. Bu əlaqələr zənginliyindən şüuru kənarlaşdırmaq olmaz, çünki şüursuz onlar mövcud ola bilməz. Ona görə də XX əsrə qədər fəlsəfə şüurda şeylərin mövcudolma üsullarının təsviri ilə məşğul idi. XX əsrdə isə vəziyyət dəyişmişdir. Alimlər şüur haqqında daha çox suallar verir və onları müxtəlif formada cavablandırırdılar. Dünyanın izahını asanlaşdırmaq, obrazların qavrayışı şüur fenomenini izah etməyə bərabərdir.

Qeyd etmək lazımdır ki, hər bir dövr şüur nədir? – sualına öz təsəvvürlərinə uyğun cavabını da vermişdir. Nəticədə bir dövrdə şüur adlanan şey, digər dövrlərdə şüur adlanmırdı. Şüur haqqında təsəvvürlər hakim dünya görüşü qaydaları ilə sıx əlaqədə olmuşdur. Təsadüfi deyildir ki, antik kosmosentrizm, orta əsrlərin teosentrizmi və Yeni dövrün antroposentrizmi şüurun müxtəlif anlamlarını formalaşdırmışdır. Öz növbəsində bu və ya digər dövr adamlarının şüuru necə başa düşmələrindən, onların dünya obrazları, onların mənəviyyatı necə başa düşmələri, siyasət, incəsənət və s. asılı idi. Çünki şüur həmişə real həyatın dililə çulğalaşmışdır. **Şüur – qeyri–maddidir. Şüuru təsvir etmək olduqca çətindir. Onun reallığı gizli, sürüşkən və ələkeçməz olur.**

Fəlsəfə tarixində şüura münasibətdə çox müxtəlif mövqe və konsepsiyalar olmuş. **Materialist konsepsiya** hesab etmişdir ki, şüur materiyanın uzun sürən təkamülünün nəticəsidir. Materiya, təbiət həmişə mövcud olmuş, insan isə daha sonralar meydana çıxmışdır. Şüur isə materiyanın yüksək inkişaf etmiş təzahürünün, insan beyninin xassəsi, məhsuludur.

Qədim fəlsəfənin materialist filosofları: **Demokrit, Epikür, Lukretsi Kar** və b. iddia etmişlər ki, şüur insan bədənindən asılıdır. 0, "ruh, şüur" insanın anadan olması ilə meydana gəlir. Əgər uşaqda duymaq, hiss etmək zəifdirsə, fikirlər isə yoxdursa, bunlar hamısı bədənin, cismin təkmilləşməsi və inkişafı ilə əlaqədar tədricən yaranır və inkişaf edir ki, təfəkkür meydana gəlir. Bədən zəifdirsə, məhv olub getdikcə şüur zəifləyir, yox

olur. Demokrit və Epikürə görə, bədənin səthinin altında incə atomlar təbəqəsi vardır, onlar xarici siqnalı alır, şüura çevirir. Şüurun (ruhun) daşıyıcıları həmin maddi "obrazlardır", "bədənsiz ruh boş sözdür, əbəsdir".

Qədim Yunan filosofu Heraklitin "loqos" təliminə görə sözlər, ideyalar, fikirlər və s. bütün maddi şeylərin mahiyyətini təşkil edir. Sofistlər, xüsusilə də Sokrat fəlsəfə tarixində ilk dəfə maddi və idealı, şeylərlə fikirləri fərqləndirmək ideyasını irəli sürmüşlər. **Platon** isə xüsusi "İdeyalar aləmini". "Maddi aləmə" qarşı qoymuş, birincini müəyyənedici hesab etmişdir.

**Obyektiv və subyektiv idealizmin** qədim və müasir nümayəndələri şüuru (ruhu), hansı şəkildə olmasından asılı olmayaraq ("Dünya ruhu", "Mütləq ideya", insan şüuru və s.) maddi gerçəkliyin əsasına qoymuş, onu materiyaya nisbətən müəyyənedici və ilkin substansiya hesab etmişlər. **Platondan Hegelə** qədər, **Fixte, Şellinq, Berkli** və başqaları real gerçəkliyin şüurdan asılı olduğunu müxtəlif formalarda əsaslandırmağa çalışmışlar. C.Berkli şüurun ("ruhun") müəyyənediciliyini, onun fəallığı ilə əsaslandırırdı. Hegel şüuru "subyektiv ruh" adlandırsa da. nəhayət onu "obyektiv ruhla" eyniləşdirdi. Yeni dövrün xüsusilə XVII - XVIII əsərlərin fəlsəfəsində şüura münasibətdə də müəyyən dəyişikliklər baş vermişdir. **R.Dekart** iddia edirdi ki, şüur (ruh) gerçəkliyin mövcudluğunu şərtləndirir. O, deyirdi ki, əgər mən müəyyən hadisə və prosesin mövcudluğuna etiraz edirəmsə, deməli "Mən fikirləşirəm". Lakin ancaq mövcud olanlar haqqında fikirləşmək ola bilər. Deməli, "mən fikirləşirəmsə, mən mövcudam". "Əgər fikirləşməyim kəsilsə, deməli, mövcud deyiləm". Onun fikrincə ancaq "fikirləşən əşya - ruh, zəka, şüur - mövcudluğun əsasıdır". "Ruh, şüur fikirləşir, can, bədən hərəkət edir, yaşayır". Şüur, təfəkkür "fikirləşən substansiyanın" fəaliyyətidir, müstəqil mövcuddur, bədəndən, maddi olandan asılı deyildir. Materiya da "fikirləşən substansiyadan" asılı deyildir. Dekart bununla da şüura münasibətdə materializm və idealizm mövqelərini birləşdirməyə çalışır, lakin etiqada deyil, zəkaya, idraka üstünlük verirdi.

Yeni dövr filosoflarından olan **T.Hobbs** təfəkkürün əsasını duyğuların təşkil etdiyi, duyğuların isə insanın bədən üzvlərinin və daxili hissələrinin hərəkəti nəticəsi olduğunu

təsdiq edirdi. Ona görə şüur, insan bədəninin daxili orqanlarının hərəkəti nəticəsidir. XVIIİ əsr fransız materialisti G.Helvetsi isə iddia edirdi ki, şüur insan və heyvan orqanizminin hiss etmək və yaddaş qabiliyyətinin nəticəsidir, şüurun mənbəyi maddi xarici aləmdir, vasitəsi isə duyğulardır. Biz nəyi görmürük, eşitmirik, toxunmuruq, onlar insan əqli üçün əlçatmazdır: "şüur beynin funksiyasıdır".

XVIII əsr materializminə mənsub olan bəzi filosoflar isə **(B.Spinoza, D.Didro, E.Hegel** və b.) şüuru materiyanın atributu, onun bütün təzahür formaları və növlərinə xas olan əbədi xassəsi adlandırırdılar. Onlar belə hesab edirdilər ki, təkcə canlılar, beyin deyil, bütün maddi dünya cisimləri şüurludur, fikirləşmək qabiliyyətinə malikdirlər. Bu baxışa fəlsəfə tarixində "hilozaizm" deyilmişdir ("hilo"- yunanca əşya, maddə, "zoil" isə həyat, şüur deməkdir).

XIX əsrdə şüura münasibətdə **K.Foqt, L.Byuxner** və **Y.Moleşott** kimi fizioloq - təbiətşünasların adı ilə bağlı olan vulqar materializm mövqeyi də yayılmışdır. Həmin baxışın tərəfdarları beyin kimi, şüuru da maddi hesab edərək, onların hər ikisini maddiləşdirilib, eyniləşdirirdilər. Onlar deyirdilər ki, qara ciyər öd ifraz etdiyi kimi, beyin də şüur ifraz edir. Şüurla beynin eyniləşdirilməsi fikrini materialist filosof **İ.Disgen** (1828 - 1898) ciddi tənqid edirdi. O, göstərirdi ki, ruh stoldan, rəng səsdən fərqlənmirsə, onda bu şeylər bir – birindən nə ilə fərqlənirlər? Bəzi filosoflar vulqar materialistləri "beynsiz filosoflar" adlandırmış və qeyd etmişlər ki, fikri maddi adlandırmaq, materializmi idealizm ilə qarışdırmağa tərəf atılmış yanlış addımdır.

XX əsrin əvvəllərində geniş yayılmış empiriokritisizmin baniləri **E.Max** və **R.Avenarius** şüuru, duyğunu beynin məhsulu olan fikrini sözdə qəbul etmirdilər. Lakin onlar həm "məni", həm də mühiti "duyğu kompleksləri"ndən ibarət hesab etməklə idealizmə qapılırdılar. Onların fikrincə, bir halda bütün cisimlər "duyğu kompleksləridir", onda beyin də cisimdir, deməli, duyğu "kompleksidir". Hər şeyin əsasında "duyğu kompleksləri"ni qoymaq isə "xalis idealizmdir". XIX əsrin sonu XX əsrin əvvəllərində şüura, xüsusilə duyğuların gerçəkliyi əks etdirməsinə münasibətlə əlaqədar simvollar, heroqliflər nəzəriyyəsi də mövcud olmuşdur. Bu mövqedən çıxış

edən alman fizioloqu **İ.Müller** duyğunun xarici aləmi əks etdirdiyini inkar edirdi. O, göstərirdi ki, duyğu xarici aləmi əks etdirdiyini inkar edir, duyğu xarici aləmin təsiri məhsulu deyil, duyğu orqanların özündə doğur, onlara "daxilən xas olan spesifik xüsusiyyətidir". L.Feyerbax bunu "fizioloji idealizm" adlandırmışdı. XIX əsrin digər təbiətşünas alimi **K.Helmhols** isə qeyd edirdi ki, duyğu xarici aləmin inikası olsa da, onun təsirindən baş versə də, xarici şeylərə oxşamır, onların surəti deyil, ancaq "simvolları, heroqlifləridir". **G.PIexanov** da duyğuları xarici aləmin işarələri, heroqlifləri adlandırırdı. Bununla da onlar duyğunun adekvatlığını, gerçəkliyin surəti olduğunu inkar edir, subyektiv idealizm mövqeyində dururdular.

Fəlsəfə tarixində şüurun mahiyyəti, onun varlığa, materiyaya münasibəti ətrafında əsas fəlsəfi istiqamətlər arasında aparılan prinsipial mübahisələrdə həlli böyük çətinlik törədən məsələ şüurun mənşəyi məsələsi olmuşdur. Şüuru əzəli qəbul edən idealizm, maddi və mə"nəvi substansiyaların, materiya və şüurun paralel mövcudluğunu iddia edən dualizm, sözsüz ki, burada böyük çətinliklə qarşılaşmışlar. Öz mövqeyində prinsipial ardıcıllıq nümayiş etdirmək istəyən materialistlər isə materiyaya yanaşarkən "özü-özünün səbəbidir" prinsipini pozmadan duyğu və şüur xassələrinə malik materiayanın mövcudluğunu sübut etmək kimi çətin və mürəkkəb bir məsələni həll etməli olmuşlar. Odur ki, köhnə materializm, hətta məsələnin düzgün həllinə xeyli yaxınlaşan fransız materialistləri bunu sübut etmək üçün təbii-elmi biliklərin çatışmaması üzündən idealizmə güzəştə getməli olurdular. Problemin pozitiv həlli sahəsində səmərəli addım yalnız keçən əsrin ortalarında atıldı. Şüurun varlığın atributu olması haqqında hilozoist Spinoza təliminin səmərəli toxumunu qəbul edən F.Engels diqqəti belə bir cəhətə yönəltdi ki, əvvəla, şüur materiyanın özü tərəfindən törədilmişdir, ikincisi, özünün bütün çevrilmələrində həmişə eyni qalan materiya "atributlarından heç birini itirmədiyindən o, gələcəkdə düşünən ruhun məhv edəcəyi təqdirdə belə, onu başqa bir yerdə, başqa bir vaxtda hökmən yenidən törədəcəkdir". Beləliklə, Engelsə görə, şüur, "düşünən ruh" materiyanın modusu, onun yalnız bə"zi formalarına məxsus təsadüfi xassəsi olmayıb, onun atributu, elə zəruri əlamətidir ki, bunsuz materiya natamam,

yarımçıq olardı. Lakin Spinozadan fərqli olaraq Engels şüurun atributluğu məsələsinə materiyanın inkişaf dialektikası baxımından yanaşaraq ruha, şüura materiyanın bünövrəsində reallaşması imkanı kimi baxırdı. Başqa sözlə, materiya öz inkişafının ən yüksək zirvəsində "düşünən ruhun" təşkil etdiyi bir sıra xassə və qabiliyyətlər törətmişdir.

Şüurun yaranmasına dair bu konsepsiya onun təbiəti haqqında məsələnin də pozitiv həllinə imkan verirdi. Sual olunur: görəsən materiyanın təşkilinin ən yüksək səviyyəsində şüurun yaranmasına səbəb olan xassəsi hansıdır? Materiyanın ən ümumi xassəsi olan, "duyan materiya" ilə "duymayan materiya" arasında əlaqə yaradan "inikas" xassəsidir.

İnikas materiyanın bünövrəsində duran ən ümumi xassədir. O, predmetlərin qarşılıqlı təsirinin universallığı ilə şərtlənir. Maddi aləmin bütün obyektləri, prosesləri öz aralarında fasiləsiz qarşılıqlı əlaqə və təsirdədirlər. Qarşılıqlı təsirdə olan obyektlərin biri digərində müəyyən "iz" buraxmaqla onları müvafiq dəyişikliyə uğradır. Başqa sözlə, qarşılıqlı təsir prosesində təsirə məruz qalan obyekt və proses öz dəyişmələrində təsir göstərən obyektin, hadisənin, prosesin müəyyən xassələrini yenidən hasil edir. Deməli, materiyanın atributiv xassəsi olmaq etibarilə inikasın mahiyyəti aşağıdakından ibarətdir.

A obyekti V obyektinə təsir edərək onda müəyyən dəyişikliklər yaradır. Bu dəyişiklik isə bundan ibarətdir ki, V obyekti A obyektinin strukturunu və bir sıra funksional münasibətlərini özündə yenidən hasil edir. V obyektinin bu xassəsi bütün maddi sistemlər üçün ümumi olub materiyanın "inikas" xassəsi adlanır. Məsələn, insanın güzgüdə əksi, dəmirin rütubətdə paslanması, elektronun elektrik sahəsində meyl etməsi, həyat şəraitinin dəyişməsilə orqanizmin rəngini və formasını dəyişməsi və s. inikasa misal ola bilər.

Yuxarıda göstərilən mənada inikas hər yerdə, ixtiyari qarşılıqlı təsir prosesində mövcuddur. Hər bir qarşılıqlı təsir inikas momentini - bir maddi törəmənin digər maddi törəmədə əks olunmasını ehtiva edir. İnikasın atributiv xarakteri hərəkətin özünün

atributiv xarakterindən törəyir. Hərəkət və qarşılıqlı təsirin mövcud olduğu hər yerdə inikas vardır. Həm də inikas bütövlükdə qarşılıqlı təsir olmayıb, onun yalnız bir momenti, tərəfidir. Qarşılıqlı təsir ikitərəfli (təsir və əks təsir) olduğu halda inikas bu prosesdə yalnız müəyyən münasibət kimi çıxış edir. Real inikas prosesləri maddi qarşılıqlı təsir əsasında yaranıb onları tələb etsələr və əksinə, inikas xassəsi yalnız maddi qarşılıqlı təsirlərdə təzahür etsə də, qarşılıqlı təsir və inikas anlayışlarını eyniləşdirmək olmaz. İnikası materiyanın bünövrəsində duran atributiv xassə kimi səciyyələndirməklə fəlsəfə duyğu, qavrayış və psixikanı, insan şüurunun genezisini başa düşmək üçün müqəddəm şərtləri formulə etmiş olur. Bu müqəddəm şərtlərdən başlıcası budur ki, inikasın ixtiyari forması və növü yalnız inkişafın müxtəlif səviyyələrində duran maddi törəmə və sistemlərin qarşılıqlı təsiri çərçivəsində meydana gəlib mövcud olurlar.

## Sual 2. İnikasın forma və səviyyələri

Maddi qarşılıqlı təsirlərin inikasın zəruri şərti və əsası olmasını qeyd etməklə yanaşı, bu proseslərin keyfiyyət spesifikliyini, onların cansız və ya canlı materiyada, habelə insan cəmiyyətinin inkişafındakı genetik iyerarxiyalarda baş verdiyini də nəzərə almaq lazımdır. Materiyanın təkamülü gedişində inikasın mürəkkəblik dərəcəsinə görə nizamlanan **müxtəlif formaları** yaranmışdır. Materiyanın inikas xassəsinin təkamülündə cansız təbiətdə inikas, bioloji inikas və sosial inikas yaranır.

**Cansız təbiətdəki inikas** sadə, passiv qeyri-funksional inikasdır. Passiv inikasa məruz qalan cansız cisim mühitin əlverişli və qeyri-əlverişli təsirlərini bir-birindən fərqləndirmir, əlverişsiz təsirlərdən uzaqlaşıb əlverişli təsirlərə uyğunlaşa bilmir. Passiv inikas formalarında bir obyektin qarşılıqlı təsir zamanı digər obyektdə buraxdığı iz bu sonuncunun fəaliyyətində oriyentir rolunu oynaya bilmir. Məsələn, günəş şüası daşı qızdırsa da, onun fəallığının artmasına təsir göstərmir. Qeyd edək ki, təsir izinin olunan predmetə oxşarlığı, onların fiziki eyniyyəti (məs., güzgüdə və suda əksin alınması) ən sadə inikas halı sayıla bilər Bu halda inikas mövcud olsa da, sözün dəqiq mənasında hələ obraz yoxdur. Güzgü onda nəyin əks olunmasına qarşı tamamilə "biganədir",

güzgüdə yaranan obraz isə yalnız bizim üçün obrazdır, lakin o, güzgü üçün obraz deyildir. Bu halda surət ilə orijinalın struktur oxşarlığı hələlik ətraf aləmdə düzgün oriyentasiya götürməyə, inikas effektlərinin imkanlarından rasional istifadə etməyə, fəallıq göstərməyə və müəyyən hərəkətləri icra etməyə imkan vermir.

**İnikasın tarixən ikinci səviyyəsi bioloji inikasdır**. Canlı orqanizm xarici təsirlərə başqa cür cavab verir, o mühitə uyğunlaşır, xaricdən olan müxtəlif təsirlərə müxtəlif cavablar verərək, mühitin əlverişli və zərərli amillərini bir-birindən fərqləndirir. Xarici təsirlərin nəticələrindən fəal istifadə edilməsinə əsaslanan bu inikası funksional informasiya inikası adlandırmaq olar. Bu halda informasiya geniş mənada, yəni orqanizmin ətraf aləmdə fəal oriyentasiyasına imkan yaradan xassəsi kimi başa düşülməlidir. İnformasiya inikasına məruz qalan sistem xarici təsir ilə öz halını dəyişməklə yanaşı, həm də öz hərəkətlərini buna müvafiq qurur. Məsələn, günəş şüasının təsirinə məruz qalan daş öz hərəkətlərini bu təsir altında qura bilmədiyi halda, bitki mühitdə düzgün oriyentasiya götürə bilmək üçün özünün bütün imkanlarından istifadə edərək günəşə doğru can atır.

İnformasiyalı inikas maddi aləmin təkamülünün canlı təbiət mərhələsində fəaliyyətə başlayır. Onun aşağıdakı növləri məlumdur:

- birhüceyrəli sadə bitki və heyvanların qıcıqlanması;
- heyvan və insanın orqandaxili reaksiyalarının tənzimlənməsi zamanı əsəb toxumalarının həyacanlanmaları (neyrofizioloji inikas) ;
- və nəhayət, psixi inikas.

**Funksional inikasın ən yüksək səviyyəsi sosial inikasdır**. O, ictimai şüurun bütün formalarını, habelə inikasın insan psixikasının, şüurun fəaliyyəti ilə bağlı olan fərdi inikasın yeni sahəsi - şüur, abstrakt təfəkkür formalaşır.

İnikasın canlı təbiət üçün səciyyəvi olan ilk forması qıcıqlanmadır. Qıcıqlanma orqanizmin müəyyən qıcıqlandırıcıların təsirinə sadə, spesifik cavab reaksiyasıdır. (Məsələn, bitkilər günəş işığının təsiri ilə öz ləçəklərini yumur və açırlar).

Orqanizmin psixikayaqədərki forması olan qıcıqlamna zamanı onun xarici təsirlərə cavab reaksiyası bütünlüklə orqanizmin daxili enerjisi hesabına baş verir. Bu halda xarici qıcıqlandırıcının enerjisi orqanizmdə yalnız daxili proseslər törədir.

Canlı təbiətdə inikasın inkişafının növbəti mərhələsi həssaslıq, duymaq qabiliyyəti olmuşdur. Canlılar üçün səciyyəvi qıcıqlanmadan fərqli olaraq duyğu yalnız heyvan və insan üçün xarakterikdir. Duyğuda xarici qıcıqlandırma enerjisi şüur faktına çevrilir. Qıcıqlanma kimi duyğu da xarici aləmin orqanizmə təsirinin nəticəsidir. Həm də bu halda orqanizmin cavab verdiyi xarici qıcıqlandırıcılar dairəsi xeyli genişdir. İndi orqanizm rənglərə, qoxulara, səslərə reaksiya göstərir, dadı duyur, istini, soyuğu, rütubəti qavrayır və başqa mexaniki, fiziki təsirlərə cavab verir. Orqanizmdə yalnız müəyyən xarici təsirləri qavraya bilən orqanlar yaranır. Orqanizm inkişaf etdikcə onun duyğuları da get-gedə zəngin və rəngarəng olur, ətraf mühitə uyğunlaşmaq qabiliyyəti artır, mühitlə xüsusi əlaqə orqanı - mərkəzi əsəb sistemi meydana gəlir. İnikas formalarının təkamülü ilə yanaşı, onun gerçəkliyə adekvatlıq dərəcəsi də artır. O getdikcə differensiallaşaraq orqanizmə ətraf mühit haqqında daha çox informasiya verir. Heyvan psixikasının yüksək inkişaf səviyyəsi və inkişafın yüksək adekvatlıq dərəcəsi inikasın ali forması olan insan şüurunu yaratmışdır.

**Sosial inikasın (insan cəmiyyətində) səviyyələri**. Şüurun mahiyyətindən danışmazdan əvvəl qeyd edək ki, insanın şüuru fəaliyyətinə onun fikirləri, duyğuları, təsəvvürləri, hissləri, iradəsi, xarakteri və s. daxildir.

İnsanın şüuru onun psixikasının bir hissəsidir, çünki psixika şüurdan əlavə şüuraltı və qeyri-şüuri prosesləri də ehtiva edir. Psixika - orqanizmin xarici gerçəkliyin hissi və ümumiləşdirilmiş obrazlarını yaratmaq və onların tələblərinə uyğun şəkildə cavab vermək qabiliyyətidir. İnsan psixikası dedikdə onun daxili, subyektiv aləminə mənsub olan hadisələr sistemi, şüuri proseslər dedikdə insanların təfəkkür və iradəsindən keçən psixi hadisələr və fəaliyyət növləri nəzərdə tutulur. Şüuraltı hadisələr isə insan təfəkkürünün nəzarətindən kənarda qalan və buna görə də kifayət qədər nəzarət oluna bilməyən mənəvi hadisələrdir.

Şüurun nə olduğunu izah etmək üçün onun materiyaya, obyektiv reallığa münasibətini aydınlaşdırmaq lazımdır. Aləmin rəngarəng hadisələrini maddi və ideal hadisələrə ayırmaq olar. Maddi hadisələr obyektiv surətdə, insandan kənarda və ondan asılı olmadan mövcud olub "materiya" anlayışında ümumiləşdirilmişdir. Maddi hadisələrdən fərqli olaraq ideal, mənəvi hadisələr ikinci, maddi hadisələrdən törəmə olub "şüur" anlayışında ifadə olunurlar. Şüur anlayışı prinsip etibarilə maddi komponentləri ehtiva etmir. Bununla yanaşı, bu anlayışı təyin etmək, şüurun nə olmasını aydınlaşdırmaq yalnız ona görə mümkün olur ki, materiya və şüurun ümumi cəhətləri vardır. Bunsuz materiya və şüur heç bir münasibətdə ola bilməzdi.

Materiya və şüurun münasibətində iki məsələni - şüurun beyinə münasibəti ilə, şüurun maddi aləmə münasibətini bir-birindən fərqləndirmək lazımdır. Şüurun beyinə münasibəti məsələsi şüurun ontoloji aspekti adlanıb bundan ibarətdir ki, şüur yüksək təşəkküllü materiyanın - insan beyninin xarici aləmi özündə əks etdirmək kimi ayrıca bir xassəsidir. Bu mənada şüur beyindən ayrılmazdır. Müasir fiziologiya müəyyən etmişdir ki, bütün psixi fəaliyyətin əsasını beyində və xüsusilə onun böyük yarımgürəciklərinin qabığında baş verən müəyyən maddi proseslər, o cümlədən fizioloji, biofiziki, neyrodinamik proseslər təşkil edir. Predmet və hadisələr insana təsir edərək onun beynində müəyyən maddi proseslər yaradır və bu zaman şüur həmin maddi proseslərin daxili halı kimi, ideal proses kimi meydana gəlir.

Elm və praktika inandırıcı şəkildə sübut edir ki, insan beyni onun psixi fəaliyyətinin orqanıdır. Beyin inikas funksiyasını həyata keçirən və daima təkmilləşən mürəkkəb sistem, incə və həssas aparatdır. İnsan beyninin böyük yarımgürəcikləri təxminən 20 milyard əsəb hüceyrəsindən təşkil olunmuşdur. Məlum olduğu kimi, sistemin mürəkkəblik dərəcəsi təkcə onun elementlərinin zənginliyi ilə deyil, həm də əlaqələrinin sayı ilə müəyyən olunur. Bu baxımdan insan beyni nəhəng, praktiki olaraq saysız-hesabsız funksional əlaqələri nümayiş etdirir. Beynin fəaliyyətindən xaricdə şüur mövcud deyil. Şüur beynin daxili halı, onun funksiyasıdır, lakin bununla belə şüur idealdır və ona fiziki xarakteristikalar isnad verilə bilməz.

Psixofiziologiya, fiziologiya, ali əsəb fəaliyyəti fiziologiyası və başqa elmlərin eksperimental məlumatları təkzibedilməz faktlarla sübut edir ki, şüur beyindən ayrılmazdır, şüuru materiyadan ayırmaq mümkün deyil. Özünün mürəkkəb biokimyəvi, fizioloji, neyrodinamik əsəb prosesləri ilə birlikdə götürülən beyin öz xassəsi olan şüurun daşıyıcısı, onun maddi substratıdır.

Qeyd etmək lazımdır ki, şüurun beyinə münasibəti onun mürəkkəb təbiətini açmaq üçün də kifayət deyil. Belə ki, psixi hadisələrin fizioloji mexanizmi gerçəkliyi subyektiv obrazlarla əks etdirən psixikanın məzmunu ilə eynilik təşkil etmir. Şüurun spesifik xüsusiyyəti onun qnoseoloji aspektində, insan beynindən kənarda mövcud olan maddi aləmə münasibətində daha qabarıq meydana çıxır.

Maddi aləmə münasibətdə şüur onun insan beynində ali, məqsədəuyğun, funksional, sosial inikasıdır. Subyektiv reallıq olan şüur obyektiv reallığın insan beynində ideal inikasıdır. Gerçəkliyi adekvat, doğru, düzgün əks etdirən şüur maddi aləm ilə, əks etdirdiyi predmet və hadisələr ilə eynilik təşkil etmir. Fikrimizdə, təsəvvürümüzdə mövcud olan, qavradığımız dünya ilə gerçək dünya heç də eyni şey deyildir. Şüur maddi dünyanın obrazı, şəkli, inikası olub, mahiyyəti etibarilə idealdır. Onda cisim dəyişdirilmiş şəkildə, ideal formada əks olunur. Obraz, inikas həqiqidirsə, maddi olanı doğru əks etdirirsə, deməli, məzmunu etibarilə obyektivdir. Lakin bununla belə o, maddi ilə eyni olmayıb, ona nəzərən ikinci və ondan törəmədir. Şüurun bütün formaları ideal olub, insanın mənəvi dünyasını təşkil edir.

Şüur anlayışına obyektiv aləmin müxtəlif inikas formaları daxildir. Buraya insanı gerçək aləmlə bilavasitə əlaqələndirən elementar inikas formalarından (duyğu, qavrayış, təsəvvür) tutmuş beynin yüksək məhsulu olub, cisim və hadisələrin dərin mahiyyətini, onların qanunauyğun əlaqələrini əks etdirən abstrakt təfəkkürə qədər hər şey (anlayış, mühakimə, əqli nəticə) daxildir. Bundan belə bir nəticə çıxır ki, şüur və abstrakt təfəkkür eyni mənalı deyil. Abstrakt təfəkkür şüurun təzahür formalarından yalnız biri, onun yüksək dərəcəsidir. Lakin şüurun bütün elementləri bir-birilə əlaqədardır. Duyğu, qavrayış, təsəvvür fikrin mənbəyidir. Bunlarsız fikir yoxdur. Bununla belə duyğu da,

qavrayış da fikri xarakter daşıyır. Beləliklə, özünün bütün aspektlərində - istər beynin xassəsi kimi, istərsə də obyektiv reallığın beyində inikası kimi şüur öz təbiəti etibarilə idealdır.

Şüurun meydana gəlməsini və inkişafını təmin edən xarici və daxili amillər determinatorlar adlanır. **Şüurun xarici determinatorları təbiət və cəmiyyətdir**. Buna görə də şüurun məzmununa təbiət və cəmiyyət haqqında fikirlər daxildir. Bu mənada şüur obyektiv aləmin subyektiv obrazıdır.

Şüur yalnız insana məxsus hadisə olub, müəyyən ictimai həyat şəraitində meydana gəlmişdir. **Məhz əməyə əsaslanan ictimai həyat insanı və onun şüurunu yaratmışdır**. Buna görə də insan şüurunun məzmununun bir hissəsini ictimai hadisələrin inikası təşkil edir. Beləliklə, insan beyninin funksiyası olan şüur, həm də ictimai praktikanın məhsuludur. Bu o deməkdir ki, cəmiyyətdən həmişəlik təcrid olunmuş adamda şüur ola bilməz.

Şüurun başlıca funksiyalarından biri insanın davranış və hərəkətlərini tənzimləməkdir.

Deyilənlər göstərir ki, yüksək dərəcədə təşəkkül tapmış materiyanın, yəni insan beyninin xarici aləmi psixi əks etdirmək xassəsi kimi yaranan şüur materiyanın uzun sürən təkamülünün nəticəsi, ictimai inkişafın məhsuludur.

## Sual 3. Mənlik şüuru

İnsan şüuru tələb edir ki, dünyaya münasibətdə müəyyən fəal mövqeyin daşıyıcısı olmaq etibarilə subyekt özünü digər subyektlərdən seçib ayırsın. İnsanı özünü seçib ayırması, özünə müəyyən münasibət bəsləməsi, öz imkanlarını obyektivcəsinə qiymətləndirməyi bacarması insan xarakteristikasının spesifik formasını təşkil edib mənlik şüuru və ya özünüdərketmə adlanır. Mənlik şüuru insanın özünə doğru yönəltdiyi şüurudur. Onun obyekti şüurun özüdür.

Müxtəlif səviyyələrdə və müxtəlif formalarda təzahür edən mənlik şüuru tarixi inkişafda götürülən mürəkkəb törəmədir. Onun hal-əhval adlanan **birinci forması**

insanın öz varlığını elementar şəkildə başa düşməsinə və özünü onu əhatə edən cisimlər və insanlar sırasına daxil etməsinə əsaslanır. Hətta şeylərin mövcudluğunun insandan və onun şüurundan kənarda elementar tərzdə qavranılması belə mənlik şüurunun müəyyən formasını tələb edir. Hər hansı bir cismin mövcudluğuna inanmaq üçün onun qavranılması prosesinə insanın digər təbii və sosial sistemlər içərisində yerini müəyyən edən və onda baş verən, mahiyyətcə xarici aləmdəki dəyişikliklərdən fərqlənən prosesləri nəzərə ala bilən bir mexanizm daxil edilməlidir. Psixoloqlar təsdiq edirlər ki, gerçəkliyin heç olmasa qavrayış səviyyəsində dərk olunması bu prosesə müəyyən bir "dünya sxeminin" daxil edilməsini tələb edir.

Mənlik şüurunun **ikinci səviyyəsi** insanın öz-özünü hər hansı bir insan birliyinə, ayrıca bir mədəniyyətə və ya sosial qrupa məxsus olan varlıq kimi dərk etməsilə bağlıdır.

Nəhayət, bu prosesin inkişafının **ən yüksək üçüncü səviyyəsini** "Mənlik" şüurunun yaranması təşkil edir. Bu səviyyədə insan öz "Mən"inin digər şəxslərdən oxşar və fərqini - özünün nadir varlıq olmasını və təkrar olunmazlığını, sərbəst hərəkətlərə qadir olmasını, hərəkət və davranışları üçün məsuliyyət hissi daşımasını, onlara nəzarət etməyin və onları düzgün qiymətləndirməyin vacibliyini dərk edir.

Lakin mənlik şüuru özünüdərkin müxtəlif forma və səviyyələri olaraq qalmır. Mənlik şüuru həm də özünü qiymətləndirmə və özünə nəzarətdir. Mənlik şüuru insanın özünü özü üçün ideal kimi qəbul etdiyi "Mən" ilə tutuşdurmasının və bu müqayisənin gedişində özü haqqında razılıq və ya narazılıq hissinin yaradılmasını tələb edir.

Mövcudluğu heç bir şübhə doğurmayan mənlik şüuru insanın mühüm keyfiyyətlərindən olub, onun intellektual həyatında mühüm rol oynayır. R.Dekart təsdiq edirdi ki, mənlik şüuru təkzibedilməz yeganə faktdır. Əgər mən hər hansı bir cismi görürəmsə o, həqiqətdə illüziya və ya qarabasma da ola bilər. Lakin mən nə özümün, nə də qavrama qabiliyyətimin mövcudluğuna şübhə edə bilmərəm. Bununla belə mənlik şüuru haqqında düşüncələr müəyyən paradoksallıqdan da məhrum deyil. Axı özünü dərk edə bilməsi üçün insan özünə kənardan baxmağı bacarmalıdır.

Halbuki özümü kənardan mən deyil, ancaq başqası görə bilir. Zira göz özündən başqa hər şeyi görməyi bacarır. Özünü kənardan görə bilmək, özünü qavraya bilmək üçün, sözsüz ki, insana güzgü lazımdır. Güzgüdə öz surətini görən və bunu yaddaşında möhkəm saxlayan insan sonradan güzgüsüz də öz şüurunda özünü "kənardan" görmək imkanı qazanır. Lakin güzgüdə özünü görən adam özünü inandırmağı bacarmalıdır ki, onun güzgüdə gördüyü adam başqası deyil, məhz onun özüdür. İlk baxışdan adama elə gəlir ki, onun güzgü inikası mütləq mənada onun özüdür. Lakin həqiqətdə bu belə deyil. Nəzərə almaq lazımdır ki, hisslərə malik olan heyvan güzgüdə özünü tanıya bilmir. Deməli, özünü görə bilməsi üçün insanda irəlicədən mənlik şüurunun müəyyən forması olmalıdır. Lakin insan üçün belə formalar əzəli deyildir, onları insan özü quraşdırır və mənimsəyir. Həm də bu formaları o, real güzgü ilə deyil, metaforik güzgü vasitəsilə mənimsəyir. Bu metaforik güzgü isə digər adamlardır, insan cəmiyyətidir.

İnsanın öz-özünə münasibəti onun digər adamlara münasibətilə müəyyən olunur. Mənlik şüuru təcrid edilmiş, ayrıca bir şəxsin daxili tələbatından deyil, kollektiv praktiki fəaliyyətdə, insanlararası münasibətlər sistemində yaranır.

Mənlik şüuru nəinki müxtəlif formalarda, həm də müxtəlif dərəcədə təzahür edir. Yuxarıda qeyd etdik ki, müəyyən qrup hadisəni dərk etməyə çalışan insan hər şeydən əvvəl həmin hadisələr sistemində özünün yerini, rolunu aydınlaşdırmağa və öz şüurunun bu hadisələrdən keyfiyyət fərqini müəyyənləşdirməyə çalışır. Lakin bu halda insanın şüuru bütövlükdə xarici aləmə tuşlandığından onun şüuru, idrakı bilavasitə onun şüurlu fəaliyyət sahəsinə daxil olmur. Necə deyərlər, bu halda mənlik şüuru hələ "qeyri-aşkar" səciyyə daşıyır. Cismin qavranılmasının bir sıra məqamları məhz bu maraqlı hadisə ilə bağlıdır. Belə bir misala baxaq. Məlumdur ki, insan cismə toxunduqda öz əlini deyil, cismi duyur. Bu halda hissi qavrayış insan haqqında deyil, predmet haqqında məlumat verdiyindən insan şüurun yalnız "arxa planında" cismə toxunduğunu hiss edir və qazanılmış informasiyanı barmaqlarının uclarında lokallaşdırır. Cismə barmaqları ilə deyil, çubuqla toxunan adamın hissi qavrayışları yenə də çubuğa deyil, cismin özünə aid olacaqdır. Buna görə də çubuq şüurun fokusunda olmayıb, onun periferiyasında duracaq

və insan bədəninin davamı kimi qavranılacaqdır. Həm də bu halda cismin adamda yaratdığı qavrayış onun barmaqlarında deyil, çubuğun ucunda lokallaşacaqdır.

Şüur hadisələrinin subyektin xüsusi analitik fəaliyyət predmetinə çevrildiyi hallarda təzahür edən mənlik şüuru formaları **refleksiya** adlanır. Qeyd etməliyik ki, refleksiya dedikdə yalnız insanın ayrı-ayrı tərəflərinin dərk olunması deyil, həm də müəyyən amillərin təsiri altında insanın dəyişməsi, şəxsiyyətin əldə edilmiş inkişaf səviyyəsindən kənara çıxması halları da nəzərdə tutulur.

İnsan öz "Mən"ini dərk etdikcə şəxsi psixi həyatının bəzi momentlərini özü üçün dayanıqlı predmetə çevirir. Bu halda insan özünü ideal şəxsiyyət fonunda reflektiv təhlil edir, o özünə öz xüsusiyyətləri haqqında hesabat verməyə çalışır, həyata münasibəti haqqında düşünür, öz şüurunun sirlər dünyasına daxil olmasına çalışaraq, bununla şəxsi həyatında nədən daha çox uzaqlaşmalı olduğunu əsaslandırmaq istəyir. Refleksiya prosesində fərdi şüurun dəyişməsi və inkişafı baş verir. Lakin düşünmək səhv olardı ki, guya insanın mənlik şüuru vasitəsilə yaratdığı obraz öz predmetinə - real insana və onun şüuruna həmişə adekvat olmalıdır. Xüsusi refleksiya halında obraz ilə real insan arasında kəskin fərq də ola bilər. Belə bir hal mənlik şüurunun sadə formaları üçün xüsusilə səciyyəvidir.

# N Ə T İ C Ə

Şüurun mənşəyi və mahiyyəti məsələsi elmin ən çətin məsələlərindən biridir. Materiya şüuru öz inkişafının hansı pilləsində və necə doğurur, insanın duyğuları, qavrayışları, təsəvvürləri və təfəkkürü necə meydana gəlir, duyğulardan və qavrayış-lardan təfəkkürə keçilməsi necə baş verir? Bütün bu məsələlər elm tərəfindən uzun müddət aydınlaşdırılmamış qalmaqda idi. Bu da səhv baxışların meydana gəlməsinə və yayılmasına səbəb olmuşdur.

Bu problem materialist fəlsəfə üçün də asan həll edilmədi. Şüurun materiyanın ayrıca bir xassəsi hesab edən materialist fəlsəfə şüurun mahiyyətini əsasən düzgün izah etməklə bərabər ciddi səhvlər də buraxmışdır. Məs. dialektik materializmdən əv-vəl bəzi materialist filosoflar şüurun meydana gəlməsi probleminin çətinliyi qarşısın-da qalaraq şüuru materiyanın atributu, onun bütün formalarına aid əbədi xassəsi he-sab etmişlər. Materialistlərin bəziləri şüuru materiyanın xüsusi bir növü hesab edir-dilər. Şüurla materiyanın əlaqəsindən suiistifadə edərək bunları eyniləşdirirdilər. Məs. Vulqar materialistlər (Fokt, Buxner, Moleşot) belə hesab edirdilər ki, qara ciyər öd if-raz etdiyi kimi, beyin də fikir ifraz edir. Bununla bulqar materialistlər materiyanın xassəsi olan şüurla materiya arasında heç bir fərq görmürlər və şüuru beynin xüsusi bir buxarlanması, sekresiya ifrazı hesab edirdilər. Vulqar materialistlər şüurun beyin-də baş verən fizioloji proseslərlə əlaqəsini düzgün gördükləri halda, psixik olanı fizioloji hadisə ilə, fikri maddə ilə eyniləşdirərək kobud səhv edirlər.

Dialektik materializm təbiət elmlərinin naliyyətləri əsasında şüurun vulqar materialist anlayışı rədd edir. Şüur müəyyən maddi, fizioloji proseslərlə əlaqədar olsa da bu proseslərin eyni ola bilməz. Fikir materiyadan, beyindən ayrılmazdır, lakin onu materiya ilə eyniləşdirmək olmaz. Dialektik materializm şüurun, təfəkkürün guya bü-tün materiya aid edən helizoizm cərəyanın ideyalarını da rədd edir. Bu cərəyanın yan-lışlığı ondadır ki, o, cansız materiya ilə üzvü materiya, düşünən materiya arasındakı keyfiyyət fərqlərinə etinasızlıq göstərir.